# Təəssüf ki, azərbaycanlı uşaqların qətlinə dünya hələ də susur

## *İkili standartlar bu məsələdə də özünü göstərir*



***Sentyabrın 27-dən həyata keçirilən təxribatlar, döyüş bölgələrindən uzaqda yerləşən şəhər və qəsəbələrimizdəki dinc əhaliyə qarşı törədilən hərbi cinayətlər nəticəsində 11 uşaq qətlə yetirilib, 36-sı isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Erməni terrorçularının dinc sakinlərə hücumu davam etdikcə, bu rəqəmlər də artır.***

Təəssüf ki, 30 ildən bəri davam edən erməni qəddarlığı və iddiaları, ədalətsiz müharibənin nəticələri qarşısında ötən müddətdə olduğu kimi, bu gün də bir çox dünya ölkələri, beynəlxalq təşkilatlar, hətta birbaşa bu problemin həlli ilə bağlı məsul olan ATƏT-in Minsk qrupu həmsədrləri səslərini çıxarmır, təcavüzkara “dur!” demirlər. Bu illər ərzində onlar yalnız bölgəyə turist kimi səfərlər edib mənasız söz yığımından ibarət bəyanatlar verməklə öz vəzifələrini bitmiş hesab edirlər.

Bir aydan artıqdır ki, erməni təxribatı qarşısında Azərbaycanın əks hücumları böyük uğurla davam edir, zəfərlə irəli addımlayırıq. Bu nailiyyətlərdən təşvişə düşən Ermənistanın siyasi və hərbi rəhbərliyi münaqişə bölgəsində ordumuza cavab verməк əvəzinə, cəbhə bölgəsindən çox uzaqlarda olan, tamamilə dinc əhalinin yaşadığı, ölkənin əhəmiyyətli, strateji və qədim şəhərləri olan Gəncəni, Bərdəni, Mingəçeviri,Tərtəri, Ağcabədini daha öncədən isə Tovuzu, hətta Naxçıvanın Ordubad şəhərini vurmağa başladılar. Onların içində, xüsusən də son günlər Gəncəyə ard-arda atılan ballistik raketlər və Bərdədə bazar mərkəzinə atılan kasetli bombalar nəticəsində çoxlu sayda insan həyatını itirdi və yaralandı.



Təəssüf ki, ölən və yaralananların arasında körpələr, hər iki valideynini və valideynlərindən birini itirən uşaqlarımız da var. Bu uşaqların hamısının taleyi qırılıb, bundan sonrakı ömrü böyük bir psixoloji travma ilə keçəcək. Onların uşaqlıqları beşiyindəcə boğulub. Məsum balalar yatdıqları yerdə, evlərində dinc şəraitdə qətlə yetirilib. Dünyaya demokratiya dərsi keçən, barmaq silkələməyi bacaran Avropa təsisatları, beynəlxalq qurumlar bu gün ermənilərin yanındadırlar, ermənipərəst mövqe ortaya qoyurlar. Birbaşa uşaq hüquqları ilə məşğul olan UNİCEF uzun illərdən və son bir aydan sonra ilk dəfə bəyanat yayıb. Lakin yenə də heç bir təsir gücünə malik olmayan gözdən pərdə asmaq naminə dişsiz bir bəyanat. Bəyanatda qeyd edilən uşaqlar kimdir, hansı ölkəyə aiddir, heç ad və soyadları, yaşları, hadisənin harada baş verməsi belə qeyd olunmur. Nədir bu ikili mövqeyin, haqsızın yanında olmağın səbəbi?

Bu gün beynəlxalq təşkilatların göz yumduğu terror sərhəd tanımır və sabah digər ölkələrə qarşı da törədilə bilər. BMT-nin uşaq hüquqları ilə bağlı Konvensiyasının 38-ci maddəsi 15 yaşına qədər uşaqların müharibəyə cəlb olunmasını, onlardan istifadə edilməsini, həyatına təhlükə yaranmasını cinayət hesab edir. Ən azı, buna əsaslanaraq, səslərini çıxarmalı, mövqelərini bildirməlidirlər. Dünya bu qədər terrora, uşaq ölümlərinə, qətliamlara səssiz qala bilməz. Anlamalıdırlar ki, bu gün Azərbaycanın, İslamın, türkün gücündən qorxuya düşərək hücum edən Ermənistan və onların havadarları istənilən ölkəni nişan ala bilərlər. Çünki terrorun sərhədi yoxdur, məhdudiyyət kimlik tanımır. O zaman bu güllələr, ballistik raketlər digər ölkələrə yönəldilə bilər. Bütün dünya, xüsusən də özlərini insan hüquqlarının carçısı hesab edən ölkələr Azərbaycanın haqlı mübarizəsinin yanında dayanaraq öz səsini qaldırmalı, təcavüzkara ”dur!" deməyi bacarmalıdırlar. “Dur!” deyərkən bunu ölkəmizə də şamil edirlər, ancaq Azərbaycan heç kimin torpağına hücum etməyib, öz torpağında savaşır, öz vətəndaşlarını qoruyur və haqlı bir Vətən müharibəsi aparır.

***Jalə ƏLİYEVA,***
***Milli Məclisin Ailə, qadın, uşaq məsələləri komitəsi sədrinin müavini, professor***

Xalq qəzeti 2020.- 3 noyabr.- S.9.